TƏSDİQ EDİLMİŞDİR
Azərbaycan Respublikası
Səhiyyə Nazirliyi
Farmakoloji və Farmakopeya
Ekspert Şurasının sədri
____________ E.M.Ağayev
"23" noyabr 2020-ci il

Dərman vasitəsinin istifadəsi üzrə təlimat (xəstələr üçün)

**Bu dərmanı istifadə etməyə başlamazdan əvvəl bu içlik vərəqəsini diqqətlə oxuyun, çünki burada Sizin üçün mühüm məlumatlar vardır.**

- *Bu içlik vərəqəsini atmayın. Daha sonra onu təkrar oxumağınız lazım gələ bilər.*
- *Əgər əlavə suallarınız olarsa, lütfən, həkiminizə və ya əczaçıya müraciət edin.*
- *Bu dərman şəxsən Sizin üçün təyin edilmişdir, onu başqalarına verməyin.*
- *Bu dərmandan istifadə müddətində həkimə və ya xəstəxanaya getsəniz, həkiminizə bu dərmandan istifadə etdiyiniz barədə məlumat verin.*
- *Bu içlik vərəqədə yazılanlara dəqiq əməl edin. Dərmanın Sizin üçün tövsiyə olunan dozasından* ***yüksək və ya aşağı*** *doza istifadə etməyin.*

**İMPERİUM XL** 40 mq/10 mq/25 mq örtüklü tabletlər
IMPERIUM XL

**Tərkibi**
*Təsiredici maddələr*: 1 tabletin tərkibində 40 mq olmesartan medoksomil, 10 mq amlodipinə ekvivalent 13,88 mq amlodipin bezilat, 25 mq hidroxlorotiazid vardır.
*Köməkçi maddələr*: prejelatinləşdirilmiş nişasta, mikrokristallik sellüloza (Avisel 102), kroskarmelloza natrium, maqnezium stearat, kolloidal silisium dioksid, çəhrayı opadri II 85F25437.

**Təsviri**
Çəhrayı rəngli, oval formalı örtüklü tabletlərdir.

**Farmakoterapevtik qrupu**
Angiotenzin II reseptorlarının blokatorları, digər kombinasiyalar.
**ATC kodu:** C09DX03.

**Farmakoloji xüsusiyyətləri**
İMPERİUM XL-in tərkibində 3 təsiredici maddə - olmesartan medoksomil, amlodipin (amlodipin bezilat şəklində) və hidroxlorotiazid vardır. Hər 3 maddə yüksək qan təzyiqinə nəzarət etməyə kömək edir.
- Olmesartan medoksomil, qan damarlarını genişləndirərək qan təzyiqini aşağı salan "angiotenzin II reseptorların antaqonistləri" adlı bir dərman qrupuna aiddir.
- Amlodipin, "kalsium kanallarının blokatorları" adlandırılan dərman preparatları qrupuna daxildir. Amlodipin də qan damarlarını genişləndirərək qan təzyiqini aşağı salır.
- Hidroxlorotiazid tiazid diüretikləri ("sidikqovucu tabletler") adlandırılan bir dərman qrupudur. Böyrəklərinizin daha çox sidik hasil etməsini təmin edərək, orqanizminizdəki artıq suyun xaric edilməsinə kömək edir və qan təzyiqini aşağı salır.

Bu maddələrin təsiri qan təzyiqinizin aşağı düşməsinə səbəb olur.

**İstifadəsinə göstərişlər**
İmperium XL yüksək qan təzyiqini aşağı salmaq üçün hipertoniyanın müalicəsində istifadə olunur.
• Qan təzyiqinə olmesartan medoksomil və amlodipinin fiksəolunmuş dozada kombinasiyası ilə kifayət qədər nəzarət edilə bilməyən böyük xəstələrdə;
• Olmesartan medoksomil və hidroxlortiazidin fiksəolunmuş kombinasiyası ilə birlikdə amlodipin qəbul edən və ya olmesartan medoksomil və amlodipinin fiksəolunmuş kombinasiyası ilə birlikdə hidroxlortiazid qəbul edən xəstələrdə
Yüksək qan təzyiqinin aşağı salınması ölümə səbəb olan və olmayan kardiovaskulyar hadisələrin, xüsusilə də insult və miokard infarktının yaranma riskini azaldır.

**Əks göstərişlər**
*Aşağıdakı hallarda İMPERİUM XL-in istifadəsi əks göstərişdir.*
Əgər,
Olmesartan medoksomil, amlodipinə və ya kalsium kanallarının blokatorlarının xüsusi bir qrupuna (dihidropiridinlər), hidroxlorotiazidə və ya hidroxlorotiazidə bənzər maddələrə (sulfonamidlər), yaxud bu dərmanın digər komponentlərindən hər hansı birinə qarşı yüksək həssaslığınız varsa.
Ciddi böyrək problemləriniz varsa.
Şəkər xəstəliyiniz və ya böyrəklərinizin funksional pozğunluğu olmaqla birlikdə, eyni zamanda qan təzyiqini aşağı salan aliskiren tərkibli bir dərmanla müalicə alırsınızsa
Qanınızda kaliumun, natriumun səviyyəsi aşağıdırsa, kalsiumun səviyyəsi yuxarıdırsa və ya sidik turşusunun (podaqra və böyrək daşı əlamətləri ilə) səviyyəsi yüksəkdirsə və onlar müalicə edildikdə yaxşılaşmırsa.
Hamiləsinizsə və ya uşaq əmizdirirsinizsə (bax: "Hamiləlik və laktasiya dövründə istifadəsi").
Ağır qaraciyər probleminiz varsa, öd ifrazınız pozulmuşdursa və ya öd kisəsindən öd axını pozulmuşdursa (məsələn, öd daşlarına görə) və ya əgər Sizdə sarılıq (dərinin və gözlərin saralması) varsa
Aşağı qan təzyiqi, aşağı nəbz, sürətli ürək döyüntüsü və ya şok (ürəklə bağlı problemlərə görə kardiogen şok daxil olmaqla) kimi səbəblərdən toxumalarda qan təchizatınn azalması əlamətləri varsa
Qan təzyiqiniz çox aşağıdırsa.
Ürəyinizdən qan axını yavaş və ya tutuludursa (aorta stenozu). Bu, ürəyinizdən qan daşıyan damar və ya qapağın daralması halında baş verə bilər.
İnfarktdan (kəskin miokard infarktı) sonra hemodinamik cəhətdən qeyri-stabil ürək çatışmazlığı ürəyin vurğu həcmində azalma varsa. Ürəyin vurğu həcminin aşağı olması təngnəfəslik hiss etmənizə və ya ayaqlarınızda və topuğunuzda ödemə səbəb ola bilər.
Şəkərli diabet xəstəsisinizsə və ya böyrək çatışmazlığınız varsa (YFS <60 ml /dəq / 1,73 $m^2$) və yanaşı olaraq aliskiren istifadə edirsinizsə.

**Xüsusi göstərişlər və ehtiyat tədbirləri**
Yüksək qan təzyiqini müalicə etmək üçün istifadə olunan aşağıdakı dərmanlardan hər hansı birini qəbul edirsinizsə, həkiminizə bu barədə məlumat verin:
• Angiotenzinçevirici fermentin (ACF) inhibitoru (məsələn, enalapril, lizinopril, ramipril), xüsusilə diabetlə bağlı böyrək probleminiz varsa
• Aliskiren
İMPERİUM XL-i yüksək qan təzyiqinin müalicəsində istifadə olunan dərmanlarla birlikdə istifadə etmək tövsiyə edilmir. Həkiminiz bu dərmanları birlikdə istifadə etməyi mütləq tövsiyə edirsə, o, müntəzəm olaraq böyrəklərinizin fəaliyyətinə, qan təzyiqinizə və qanınızdakı elektrolitlərin (məsələn, kalium) miqdarına nəzarət edə bilər.
AÇF inhibitorları və angiotenzin II reseptorlarının blokatorları diabetik nefropatiyalı pasiyentlərdə eyni vaxtda istifadə edilməməlidir.
*Ehtiyatla*
Əgər,
• Böyrək probleminiz varsa və ya Sizə böyrək köçürülmüşdürsə
• Qaraciyər xəstəliyi

- Ürək çatışmazlığı və ya ürəyin klapanları (qapaqları) və ya əzələləri ilə bağlı problemlər
- Güclü qusma və ya ishal varsa, yüksək dozada sidikqovucu tabletlərlə (diuretiklər) müalicə alırsınızsa və ya az miqdarda duzla pəhriz saxlayırsınızsa
- Hipovolemiya
- Hiponatriemiya
- Qanda kaliumun səviyyəsinin dəyişməsi
- Böyrəküstü vəzilərlə bağlı problemlər (böyrəkdə hormon hasil edən vəzilər)
- Şəkərli diabet
- Litium istifadə edirsinizsə
- Qırmızı qurdeşənəyi (autoimmün xəstəlik)
- Allergiya və ya astma
- Günəş şüalarına məruz qaldıqdan və ya günəş vannaları qəbul etdikdən sonra günəş yanığı və ya səpgi kimi dəri reaksiyaları (hidroxlorotiazid qəbul edən pasiyentlərdə qeyri-melanom dəri xərçəngi riski mövcuddur).

Ciddi, davamlı və bədən kütləsinin itməsinə səbəb olan ishal ilə qarşılaşsanız, həkiminizlə əlaqə saxlayın. Həkiminiz simptomlarınızı qiymətləndirə və qan təzyiqinizin müalicəsi üçün dərmanlarınızı qəbulunu necə davam etdirəcəyinizə dair qərar verə bilər.
Qan təzyiqini aşağı salan bütün dərmanlarla olduğu kimi, ürək və ya beyində qan axını pozulan xəstələrdə qan təzyiqinin həddindən artıq düşməsi infarkta və ya insulta səbəb ola bilər. Buna görə həkiminiz qan təzyiqinizi diqqətlə yoxlayacaqdır.
İMPERİUM XL qanda yağın səviyyəsində və sidik turşusunun səviyyəsində artıma səbəb ola bilər (podaqra ilə əlaqədar oynaqlarda ağrılı şişkinlik). Həkiminiz bunları vaxtaşırı yoxlamaq üçün qan testi tələb edə bilər.
İMPERİUM XL, qanınızdakı elektrolit adlanan müəyyən kimyəvi maddələrin səviyyəsini dəyişdirə bilər. Həkiminiz vaxtaşırı nəzarət üçün qan analizləri tələb edə bilər. Elektrolit səviyyəsinin dəyişməsinin simptomları aşağıdakılardır: susuzluq, ağızda quruluq, əzələ ağrısı və ya spazmları, əzələlərdə yorğunluq, aşağı qan təzyiqi (hipotenziya), zəiflik hissi, yuxululuq, yorğunluq, yuxusuzluq və ya narahatlıq, ürəkbulanma, qusma, sidiyəgetməyə ehtiyacın azalması, ürək döyüntülərinin sayının artması. Bu simptomları hiss etsəniz, bu barədə həkiminizə məlumat verin.
Qalxanabənzər vəzinin funksiyası üçün test etməlisinizsə, bu testlər aparılmazdan əvvəl İMPERİUM XL qəbulunu dayandırmalısınız.
Hamilə olduğunuzu (və ya hamilə qala biləcəyinizi) düşünürsünüzsə, bu barədə həkiminizə söyləməlisiniz. İMPERİUM XL, hamiləliyin ilk mərhələlərində tövsiyə edilmir və əgər 3 aydan çox hamiləsinizsə, bu mərhələdə istifadə edilməməlidir, belə ki, bu, körpənizə ciddi zərər verə bilər (bax: "Hamiləlik və laktasiya dövründə istifadəsi").
*Uşaqlarda və yeniyetmələrdə (18 yaşdan aşağı) istifadəsi*
İMPERİUM XL-in uşaqlarda və 18 yaşına çatmayan yeniyetmələrdə istifadəsi tövsiyə olunmur.
Bu xəbərdarlıqlar, keçmişdəki hər hansı dönəmdə olmuş olsa belə, Sizin üçün keçərlidirsə, lütfən, bu barədə həkiminizə məlumat verin.
*İMPERİUM XL-in tərkibində olan bəzi köməkçi maddələr barədə mühüm məlumatlar*
Preparatın tərkibində xəbərdarlıq tələb edən heç bir əlavə maddə yoxdur.

**Digər dərman vasitələri ilə qarşılıqlı təsiri**
Aşağıda qeyd edilən dərman preparatlarından hər hansı birini istifadə edirsinizsə və ya yaxın zamanlarda istifadə etmisinizsə, bu barədə həkiminizə və ya əczaçıya məlumat verin:
İMPERİUM XL-in təsirini gücləndirə biləcəyi üçün, qan təzyiqini aşağı salan digər dərmanlar. Həkiminiz aşağıdakı halda dozanı dəyişdirə və / və ya başqa tədbirlər görə bilər:
AÇF inhibitoru və ya aliskiren qəbul edirsinizsə (bundan başqa, "Əks göstərişlər" və "Xəbərdarlıqlar və ehtiyat tədbirləri" bölmələrinə baxın)
Litiumun (əhval dəyişikliyini və bəzi depressiya növlərini müalicə etmək üçün istifadə olunan dərman) İMERİUM XL ilə eyni zamanda istifadəsi litiumun toksik (zəhərləyici) təsirinin güclənməsinə səbəb ola bilər. Birlikdə istifadəsi məsləhət görülmür. Əgər İMPERİUM XL ilə yanaşı Litium qəbul etməlisinizsə, həkiminiz qanınızda litiumun səviyyəsini ölçəcəkdir.
CYP3A4 inhibitorları, CYP3A4 induktorları

Ürək ritminin pozulması zamanı və yüksək qan təzyiqini müalicə etmək üçün istifadə olunan diltiazem, verapamil.
Vərəmin və digər infeksiyaların müalicəsi üçün istifadə olunan rifampisin, eritromisin, klaritromisin
Dazıotu (St. John's Wort, Hypericum perforatum), depressiyanın müalicəsi üçün istifadə olunan bitki mənşəli dərman
Qreypfrut və ya qreypfrut şirəsilə eyni vaxtda istifadəsi məsləhət görülmür.
Mədə və bağırsaqda qidaların hərəkətini artırmaq üçün istifadə olunan sizaprid
Yavaş ürək döyüntüsünü müalicə etmək və ya tərləməni azaltmaq üçün istifadə olunan difemanil
Malyariya zamanı istifadə olunan halofantrin
Beyin qan dövranını yaxşılaşdırmaq üçün istifadə olunan vinkamin VD.
Parkinson xəstəliyində istifadə olunan amantadin
Kalium əlavələri, tərkibində kalium olan duz əvəzediciləri, sidikqovucular (diuretik-lər), heparin (qanı durulaşdırmaq və qanın laxtalanmasının qarşısını almaq üçün is-tifadə olunan dərman), AÇF inhibitorları (qan təzyiqini aşağı salmaq üçün istifadə olunan dərmanlar), işlədicilər, steroidlər, adrenokortikotrop hormon (ACTH), karbenoksolon (ağız və mədə xoralarının müalicəsində istifadə olunan dərmanlar), penisillin (antibiotik), asetilsalisil turşusu kimi bəzi ağrıkəsicilər ("aspirin") və ya salisilatlar. Bu dərmanlar İMPERİUM XL ilə eyni vaxtda istifadə edildikdə qanınızda kaliumun səviyyəsini dəyişdirə bilər.
İMPERİUMXL ilə eyni vaxtda istifadə edilən qeyri-steroid iltihabəleyhinə preparatlar (QSİƏP) (QSİƏP-lər ağrı, şişkinlik və artrit daxil olmaqla, iltihabın digər əlamətlərini aradan qaldırmaq üçün istifadə olunur) böyrək çatışmazlığı riskini artıra bilər. QSİƏP-lər İMPERİUM XL-in təsirini azalda bilər. Salisilatların yüksək dozalarının istifadəsi mərkəzi sinir sisteminə toksik təsiri artıra bilər.
İMPERİUM XL ilə alkoqolun, barbituratların, yuxu dərmanlarının, trankvilizatorların və antidepressant dərmanların birlikdə istifadəsi ayağa qalxan zaman qan təzyiqinin qəfil enməsinə səbəb ola bilər.
Qanda xolesterinin səviyyəsini aşağı salan Kolesevelam hidroxlorid, İMPERİUM XL-in təsirini azalda bilər. Həkiminiz İMPERİUM XL-i Kolesevelam hidroxloriddən ən azı 4 saat əvvəl qəbul etməyi məsləhət görə bilər.
İMPERİUM XL-in təsirini bir qədər azalda bilən antasidlər (həzmin pozulması və ya qıcqırma zamanı istifadə olunan dərmanlar)
Baklofen və tubokurarin kimi müəyyən miorelaksantlar
Atropin və biperiden kimi antixolinergik dərmanlar
Kalsium əlavələri
Dantrolen (bədən temperaturunun ağır pozulmaları zamanı istifadə olunan infuziya)
İmmun reaksiyasına nəzarət etməklə orqanizminizin köçürülmüş orqanı qəbul etməsinə imkan verən takrolimus və siklosporin.
Simvastatin (qanda xolesterinin və triqliseridlərin səviyyəsini aşağı salmaq üçün istifadə olunur).
Aşağıdakı dərmanlardan hər hansı birini istifadə edirsinizsə və ya yaxın zamanda istifadə etmisinizsə, bu barədə həkiminizə və ya əczaçıya məlumat verin.
Tioridazin, xloropromazin, levomepromazin, triflüoperazin, siamemazin, sulpirid, amisülprid, pimozid, sultoprid, tiaprid, droperidol və ya haloperidol kimi bəzi psixiatrik pozğunluqların müalicəsi üçün istifadə olunan dərmanlar.
Diazoksid və yüksək qan təzyiqinin (məsələn, beta blokatorlar, metildopa) müalicəsi üçün istifadə olunan dərmanlar. İMPERİUM XL bu dərmanların təsirini dəyişdirə bilər.
Mizolastin, pentamidin, terfenadin, dofetilid, ibutilid və ya eritromisin inyeksiyaları kimi ürək ritmi problemlərinin müalicəsi üçün istifadə olunan dərmanlar.
İİV/QİÇS-in müalicəsi üçün istifadə olunan dərmanlar (məsələn, ritonavir, indinavir, nelfinavir).
Göbələk infeksiyalarının müalicəsi üçün istifadə olunan dərmanlar (məsələn, ketokonazol, itrakonazol, amfoterisin).
Xinidin, hidroxinidin, dizopiramid, amiodaron, sotalol, bepridil və ya üskükotu preparatları kimi ürək xəstəliklərinin müalicəsi üçün istifadə olunan dərmanlar

Amifostin, siklofosfamid və ya metotreksat kimi xərçəng xəstəliyinin müalicəsi üçün istifadə olunan dərmanlar
Noradrenalin kimi qan təzyiqini yüksəldən və ürək yığılmalarının tezliyini azaldan dərmanlar
Tetrasiklin və ya sparfloksasin adlanan antibiotiklər kimi infeksiyaların müalicəsi üçün istifadə edilən dərmanlar
Probenesid, sülfinpirazon və allopurinol kimi podaqranı müalicə edən dərmanlar
Xolestiramin və xolestipol kimi qanda yağ səviyyəsini aşağı salan dərmanlar
Metformin və ya insulin kimi qanda şəkərin səviyyəsini aşağı salan preparatlar
*Əgər hazırda resept əsasında və ya reseptsiz buraxılmasından asılı olmayaraq hər hansı digər dərman preparatı istifadə edirsinizsə və ya yaxın zamanlarda istifadə etmisinizsə, bu barədə həkiminizə və ya əczaçıya məlumat verin.*

**Hamiləlik və laktasiya dövründə istifadəsi**
*Dərmanı istifadə etməyə başlamazdan əvvəl həkiminizlə və ya əczaçı ilə məsləhətləşin.*
Əgər hamiləsinizsə, hamilə ola biləcəyinizi düşünürsünüzsə və ya hamilə qalmağı planlaşdırırsınızsa, bu barədə həkiminizə məlumat verin. Həkiminiz adətən hamilə qalmanızdan əvvəl və ya hamilə olduğunuzu bildiyiniz zaman Sizə İMPERİUM XL qəbul etməyi dayandırmağı məsləhət görəcək və İMPERİUM XL əvəzinə başqa bir dərman istifadə etməyi məsləhət görəcəkdir. İMPERİUM XL, hamiləliyin ilk mərhələlərində tövsiyə edilmir və hamiləlik 3 aydan çoxdursa, qəbul edilməməlidir, çünki hamiləliyin 3-cü ayından sonra istifadə olunarsa, dölə ciddi zərər verə bilər.
*İMPERİUM XL ilə müalicə müddətində hamilə qaldığınızı hiss etsəniz, dərhal həkiminizlə və ya əczaçı ilə məsləhətləşin.*
*Laktasiya*
*Dərmanı istifadə etməyə başlamazdan əvvəl həkiminizlə və ya əczaçı ilə məsləhətləşin.*
Uşaq əmizdirirsinizsə və ya əmizdirməyə başlamaq istəyirsinizsə, bunu həkiminizə bildirin. Uşaq əmizdirən analar üçün İMPERİUM XL tövsiyə olunmur və əgər uşağınızı əmizdirmək istəyirsinizsə, xüsusilə uşağınız yenidoğulmuş və ya vaxtındanəvvəl doğulmuşdursa, həkiminiz Sizin üçün başqa bir müalicə seçə bilər.
Əgər hamiləsinizsə, hamilə ola biləcəyinizi düşünürsünüzsə və ya hamilə qalmağı planlaşdırırsınızsa, bu dərmanı istifadə etməyə başlamazdan öncə bu barədə həkiminizə və ya tibb bacısına məlumat verin.

**Nəqliyyat vasitələrini və digər potensial təhlükəli mexanizmləri idarəetmə qabiliyyətinə təsiri**
Yüksək qan təzyiqinə görə müalicə edilərkən, Siz yuxululuq, ürəkbulanma və ya başgicəllənmə hiss edə bilərsiniz. Bu baş verərsə, simptomlar yox olana qədər nəqliyyat vasitələrini və digər potensial təhlükəli mexanizmləri idarə etməyin. Məsləhət üçün həkiminizə müraciət edin.

**İstifadə qaydası və dozası**
İMPERİUM XL-i həmişə həkiminizin Sizə söylədiyi şəkildə istifadə edin. Əgər əmin deyilsinizsə, həkiminizlə və ya əczaçı ilə dəqiqləşdirin. İMPERİUM XL-in gündəlik istifadə dozası gündə bir tabletdir.
Maksimal məsləhət görülən doza 1 tabletdir.
*İstifadə qaydası*
Tabletlər ac və ya tox qarına qəbul edilə bilər. Tableti bir qədər maye ilə udun (məsələn, bir stəkan su). Tableti çeynəmək olmaz. Tableti qreypfrutla birlikdə qəbul etməyin.
Əgər mümkünsə gündəlik dozanızı hər gün eyni zamanda qəbul edin, məsələn, səhər yeməyi vaxtı.
*Müxtəlif yaş qrupları*
*Uşaqlarda istifadəsi*
İMPERİUM XL-in 18 yaşdan kiçik uşaqlarda və yeniyetmələrdə istifadəsi tövsiyə olunmur.
*Yaşlılarda istifadəsi*
Əgər yaşınız 65 yaşdan yuxarıdırsa, qan təzyiqinizin həddindən artıq dərəcədə aşağı düşmədiyinə əmin olmaq üçün həkiminiz hər doza artımı zamanı qan təzyiqinizi müntəzəm

olaraq yoxlayacaqdır. Yaşlılar maksimal məsləhət görülən dozanı İMPERİUM XL-i gündə 1 tablet qəbul etdikdə, ehtiyatlı olmalıdırlar.

*Böyrək çatışmazlığı*

Yüngül və orta dərəcəli böyrək çatışmazlığı (KK 30-60 ml/dəqiqə) olan pasiyentlərdə 40 mq-lıq olmesartan medoksomilin istifadəsi məhduddur. Bu qrup pasiyentlərdə olmesartan medoksomilin məsləhət görülən dozası 20 mq-dır.

*Qaraciyər çatışmazlığı*

Yüngül qaraciyər çatışmazlığı zamanı preparat ehtiyatla istifadə edilməlidir. Orta dərəcəli qaraciyər çatışmazlığı olan pasuyentlərdə olmesartan medoksomilin maksimal gündəlik dozası 20 mq-dan artıq olmamalıdır.

Ağır dərəcəli qaraciyər çatışmazlığı zamanı preparatın istifadəsi əks göstərişdir.

*Qara irqdən olan xəstələr*

Qara irqdən olan xəstələrdə bəzi oxşar dərmanlar kimi, İMERİUM XL-in qan təzyiqini aşağı salıcı təsiri zəif ola bilər.

*İMPERİUM XL-in qida və içkilərlə istifadəsi*

İMPERİUM XL ac və ya tox qarına qəbul edilə bilər.

İMPERİUM XL istifadə edən insanlar qreypfrut şirəsi və ya qreypfurt istifadə etməməlidirlər. Belə ki, qreypfrut şirəsi və ya qreypfrutun amlodipin təsiredici maddəsinin qanda səviyyəsini yüksəltməklə, İMPERİUM XL-in qan təzyiqini azaldıcı təsirinin gözlənilməz artmasına səbəb ola bilər. İMPERİUM XL qəbul edərkən alkoqolla bağlı ehtiyatlı olun, çünki bəzi insanlar yanaşı olaraq alkoqol qəbul edərkən vertiqo da daxil olmaqla başgicəllənmə hiss edirlər. Bu hal Sizdə baş verərsə, alkoqol qəbul etməyin.

*İMPERİUM XL-i istifadə etməyi unutsanız*

Gündəlik almalı olduğunuz dozanı almağı unutsanız, ertəsi gün normal dərman dozanızı qəbul edin.

*Unudulmuş dozanı əvəz etmək üçün ikiqat doza istifadə etməyin.*

*İMPERİUM XL ilə müalicənin dayandırılması zamanı meydana çıxa biləcək təsirlər*

Həkiminizin tövsiyəsi olmadan İMPERİUM XL-i istifadə etməyi dayandırmayın.

Bu dərmanın istifadəsi ilə bağlı başqa suallarınız olarsa, həkiminizə və ya əczaçıya müraciət edin.

*Əgər İMPERİUM XL-in təsirinin çox güclü və ya zəif olduğuna dair bir müşahidənizz varsa həkiminizlə və ya əczaçı ilə məsləhətləşin.*

**Əlavə təsirləri**

Bütün dərmanlar kimi İMPERİUM XL-in tərkibində olan maddələrdən hər hansı birinə qarşı həssas olan insanlarda əlavə təsirlər meydana çıxa bilər.

Bu əlavə təsirlərin əksəriyyəti yüngüldür və müalicənin dayandırılmasına səbəb olmur.

*Əgər aşağıdakı hallardan hər hansı biri baş verərsə, İMPERİUM XL-i istifadə etməyi dayandırın və bu barədə həkiminizə məlumat verin və ya ən yaxın xəstəxananın təcili yardım şöbəsinə müraciət edin.*

İMPERİUM XL ilə müalicə zamanı bütün bədənə yayılan, üzün, ağızın və / və ya qırtlağın (larinks) şişməsinə səbəb olan, qaşınma və ya dəri səpgisi ilə təzahür edən allergik reaksiyalar meydana çıxa bilər.

*Əgər bu əlamətlər meydana çıxarsa, İMPERİUM XL-i istifadə etməyi dayandırın və dərhal həkiminizə müraciət edin.*

Ciddi bayılma və ya huşun itməsi; çünki İMPERİUM XL, həssas şəxslərdə qan təzyiqinin çox aşağı düşməsinə səbəb ola bilər.

*Əgər bu əlamətlər meydana çıxarsa, İMPERİUM XL-i istifadə etməyi dayandırın və dərhal həkiminizə müraciət edin və düz uzanın, ayaqlarınızın altını dəstəkləyərək yuxarı qaldırın.*

Bunların hamısı çox ciddi əlavə təsirlərdir.

Əgər Sizdə bunlardan biri varsa, deməli, İMPERİUM XL-ə qarşı ciddi bir allergiyanız var. Təcili tibbi müdaxiləyə və ya xəstəxanaya yerləşdirilməyinizə ehtiyac ola bilər.

İMPERİUM XL üç aktiv (təsiredici) maddənin birləşməsidir. Aşağıdakı məlumatlar,birincisi İMPERİUM XL kombinasiyası ilə bağlı bu vaxta qədər məlumat verilən digər əlavə təsirləri və ikincisi, hər bir fərdi aktiv maddə ilə bağlı və ya iki maddənin birlikdə verildiyi zaman meydana çıxan əlavə təsirləri göstərir.

Əlavə təsirlərin baş verə biləcəyi bir çox xəstə haqqında təsəvvür yaratmaq üçün bu əlavə təsirlərin başvermə tezliyi "tez-tez", "bəzən", "nadir" və "çox nadir" kimi verilmişdir.
Tez-tez: 10 xəstənin birindən azında, lakin 100 xəstənin birindən çoxunda meydana çıxa bilər.
Bəzən: 100 xəstənin birindən azında, lakin 1000 xəstənin birindən çoxunda meydana çıxa bilər.
Nadir: 1000 xəstənin birindən azında, lakin 10000 xəstənin birindən çoxunda meydana çıxa bilər.
Çox nadir : 10000 xəstənin birindən azında meydana çıxa bilər.
Məlum deyil: mövcud məlumatlara əsasən başvermə tezliyini müəyyən etmək mümkün deyil.
*Aşağıda qeyd edilən əlavə təsirlər İMPERİUM XL-in istifadəsi ilə bağlı məlum olan digər əlavə təsirlərdir.*
Bu əlavə təsirlər meydana çıxarsa, adətən yüngül dərəcədə olur və müalicənizi dayandırmağa ehtiyac olmur.
*Tez-tez (10 xəstənin birindən azında, lakin 100 xəstənin birindən çoxunda meydana çıxa bilər)*
Yuxarı tənəffüs yollarının infeksiyası; nazofaringit; sidikçıxarıcı yolların infeksiyası; başgicəllənmə; baş ağrısı; ürək döyüntüsünün hiss olunması; aşağı qan təzyiqi; ürəkbulanma; ishal; qəbizlik; əzələ spazmı; oynaqlarda şişkinlik; sidiyəgetməyə çağırışlar; zəiflik; topuqda, ayaqlarda, qollarda, əllərdə və baldırlarda ödem; yorğunluq; anormal laborator göstəricilər.
*Bəzən (100 xəstənin birindən azında, lakin 1000 xəstənin birindən çoxunda meydana çıxa bilər)*
Hiperkaliemiya, hipokaliemiya, ayağa qalxanda vertiqo; başgicəllənmə; sürətli ürək döyüntüsü; huşunu itirmə hissi; üzün qızarması və istilik hissi; öskürək; ağızda quruluq; əzələ zəifliyi; ereksiya qabiliyyətinə malik ola  və onu saxlaya bilməmək.
*Aşağıdakı əlavə təsirlər, hər bir ayrı maddə ilə bağlı və ya iki maddə birlikdə istifadə edildikdə meydana çıxan əlavə təsirlərdir.*
Bu günə qədər İMPERİUM XL ilə bağlı meydana çıxmamasına baxmayaraq, aşağıdakılar İMPERİUM XL-in əlavə təsirləri ola bilər.
*Çox tez-tez (10 xəstənin birində)*
Hipertriqliseridemiya, hiperxolesterinemiya, hiperurikemiya, ödem.
*Tez-tez (10 xəstənin birindən azında, lakin 100 xəstənin birindən çoxunda meydana çıxa bilər)*
Sidikçıxarıcı yolların infeksiyası, hipokaliemiya, hiperkalsiemiya, hiponatriemiya, hipomaneziemiya, hiperxloremiya, hiperamilasemiya; bronxit, öskürək, təngnəfəslik; mədə və ya bağırsaq infeksiyası; qusma; qan şəkərinin artması; sidikdə şəkər; şüurun qarışması; yuxululuq hissi, başgicəllənmə, başağrı, palpitasiya, qanaxını; burun axması və ya tutulması; boğaz ağrısı; qarın nahiyəsində ağrı, ishal, ürəkbulanma, qəbizlik; qıcqırma; mədə pozğunluğu; mədədə köp, qastroenterit; əzələ spazmı, oynaqlarda və ya sümüklərdə ağrı, topuqda şişkinlik; bel ağrısı; skelet ağrısı; sidikdə qan; qripəbənzər simptomlar; sinədə ağrı; ağrı, asteniya, yorğunluq, periferik ödem, anormal laborator göstəricilər; görmənin pozulması (ikili görmə və bulanıq görmə daxil olmaqla).
*Bəzən (100 xəstənin birindən azında, lakin 1000 xəstənin birindən çoxunda meydana çıxa bilər)*
Trombositlər kimi tanınan qan hüceyrələrinin sayının azalması, bu, asanlıqla göyərmə ilə və ya uzun müddət qanaxma ilə nəticələnə bilər; anafilaktik reaksiya; iştahanın anormal azalması (anoreksiya); yuxu problemi, qıcıqlanma; həssaslıq; narahatlıq daxil olmaqla əhvalda dəyişiklik; "Kefsiz-lik" və ya depressiya; titrəmə; yuxunun pozulması; dadbilmə hissinin pisləşməsi; şüurun itməsi; toxunma (lamisə) hissinin azalması; sancma (iynəbatma)  hissi; iştahanın itməsi, tremor; uzağı görməməyin pisləşməsi; vertiqo, tinnitus (qulaqlarda küy); aritmiya, stenokardiya (sinədə ağrı və ya narahatlıq); hipotoniya, ortostatik hipotenziya; ağızda quruluq, nəfəs almaqda çətinlik; səpgi; saçın tökülməsi; allergik dermatit, dərinin allergik iltihabı; dəridə qızartı, ekzantema; kiçik qanaxma səbəbindən dəridə purpura və ya qırmızımtıl ləkə; dərinin rəngsizləşməsi; qırmızı qaşınan şişkinlik (övrə); güclü tərləmə; qaşınma; dəridə qabıqlanma; günəş yanığı və ya səpgi kimi, işığa qarşı dəri reaksiyaları; əzələ ağrısı; tez-tez sidiyə getmə, sidiyəgetmə ilə bağlı problem; gecə təcili olaraq sidiyəgetmə hissi; kişilərdə sinənin böyüməsi; erektil disfunksiya, cinsi istəyin azalması; üzün ödemi; özünü pis hissetmə; bədən kütləsinin artması və ya azalması; zəiflik, ətraflarda ağrı.

*Nadir (1000xəstənin birindən azında, lakin10000xəstənin birindən çoxunda meydana çıxa bilər)*
Ağızsuyu vəzilərinin şişməsi və ağrılı olması; ağ qan hüceyrələrinin (leykositlərin) sayının infeksiya riskini artıra biləcək dərəcədə azalması; qırmızı qan hüceyrələrinin (eritrositlər) sayının azalması (anemiya); aplastik anemiya, sümük iliyinin zədələnməsi, neytropeniya/aqranulositoz; hiperkaliemiya; həyəcan; laqeydlik hissi (apatiya); qıcolma tutmaları; baxdığınız əşyaların sarı görünməsi; lakrimasiyanın azalması, gözlərdə quruluq; ksantopsiya; qan laxtaları (tromboz və ya emboliya); ağciyərlərdə maye yığılması; kəskin interstisial pnevmoniya; qan damarlarının və dəridəki kiçik qan damarlarının iltihabı; mədəaltı vəzidə iltihab; dəridə və gözlərdə sarılıq; öd kisəsinin kəskin iltihabı; angioödem, səpgi, oynaq ağrısı və əl və barmaqlarda soyuma, qırmızı qurde-şənəyinin bəzi əlamətləri; dəri qırmızı qurdeşənəyinin reaktivasiyası, dəridə qabıqlanma və qabarların əmələ gəlməsi, toksik epidermal nekroliz; əzələ zəifliyi, hərəkət pozğunluğu; kəskin böyrək çatışmazlığı, interstisial nefrit, böyrək çatışmazlığı; böyrəyin infeksion törədici iə bağlı olmayan (qeyri-infeksion) iltihabı; zəif böyrək funksiyası; qızdırma, süstlük.
*Çox nadir (10000 xəstənin birindən azında meydana çıxa bilər)*
Dərmanlara qarşı yüksək həssaslıq. Yüksək əzələ gərginliyi; əllərdə və ayaqlarda uyuşma; hipoxloremik alkaloz, hipertoniya, kəskin ürək xəstəliyi, miokard infarktı; mədənin iltihabı (qastrit); dişətinin qalınlaşması; paralitik bağırsaq keçməzliyi, spruyabənzər enteropatiya; qaraciyərin iltihabı; allergik dəri səpgisi, multiformalı eritema, eksfoliativ dermatit, Kvinke ödemi, Stivens-Conson sindromu.
*Məlum deyil*
Qeyri-melonom dəri xərçəngi, ekstrapiramid pozğunluq, kəskin miopiya, bağlıbucaqlı qlaukoma, xorioidal effuziya.
*Əgər bu içlik vərəqədə qeyd edilməyən hər hansı bir əlavə təsir meydana çıxarsa, bu barədə həkiminizə və ya əczaçıya məlumat verin.*

**Doza həddinin aşılması**
Əgər lazım olduğundan daha çox İMPERİUM XL almısınızsa, başgicəllənmə, sürətli və ya yavaş ürəkdöyünmə və aşağı qan təzyiqinin bəzi simptomları ilə qarşılaşa bilərsiniz.
Əgər lazım olduğundan çox tablet qəbul etmisinizsə və ya bir uşaq təsadüfən bir neçə tableti udmuşdursa, dərhal həkiminizə və ya ən yaxın xəstəxananın təcili yardım şöbəsinə müraciət edin və dərmanın qablaşdırmasını və ya bu içlik vərəqəsini özünüzlə götürün.
*İMPERİUM XL-dən lazım olduğundan artıq miqdarda istifadə etmisinizsə, həkimlə və ya əczaçı ilə danışın.*

**Buraxılış forması**
7 tablet, blisterdə. 4 blister, içlik vərəqə ilə birlikdə karton qutuya qablaşdırılır.

**Saxlanma şəraiti**
25°C-dən aşağı otaq temperaturunda, qablaşdırmada və uşaqların əli çatmayan yerdə saxlamaq lazımdır.
Yararlılıq müddəti bitmiş və ya istifadə edilməmiş dərmanları çirkab sularına və məişət tullantılarının içərisinə atmayın. Onları hara atmaq lazım olduğunu əczaçıdan soruşun. Bu tədbirlər ətraf mühitin qorunmasına xidmət edir.
Əgər preparatda və ya qablaşdırmada hər hansı qüsur hiss etsəniz, İMPERİUM XL-i istifadə etməyin.

**Yararlılıq müddəti**
Yararlılıq müddəti qablaşdırmanın üzərində göstərilmişdir.
Yararlılıq müddəti bitdikdən sonra istifadə etmək olmaz.

**Aptekdən buraxılma şərti**
Resept əsasında buraxılır.

**İstehsalçı**

GEN İLAÇ VE SAĞLIK ÜRÜNLERİ SAN. ve TİC. A.Ş.,
ASO 2. ve 3. OSB Alcı OSB Mah. 2013 Cad. No.24 Sincan/ANKARA.

**Lisenziyanın sahibi**
GEN İLAÇ VE SAĞLIK ÜRÜNLERİ SAN. ve TİC. A.Ş.,
Mustafa Kemal Mah., 2119.Sok. No:3 Balgat Çankaya/ANKARA.